Deloitte.

MAKING AN IMPACT THAT MATTERS since 1845





# Aylıq xəbərlərin icmalı
Mart 2023

## Azərbaycan

### Azərbaycanda "IT Hub Azerbaijan" layihəsinə start verilib

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) və bir qeyri-kommersiya təşkilatının birgə əməkdaşlığı ilə "IT Hub Azerbaijan" layihəsinə start verilib.

Layihə çərçivəsində ilkin mərhələdə Azərbaycan üzrə 19-30 yaşlı gənclər bu sahəyə investisiyaların cəlb edilməsini artırmaq üçün ödənişsiz İT təlimlərində iştirak edə bilərlər. Təlimlər beynəlxalq ekspertlər tərəfindən kompüter elmləri, proqramlaşdırma, biznes təhlili və digər mövzularda 11 ay müddətində onlayn şəkildə aparılacaqdır.

Mənbə: report.az, 7 fevral, 2023

### Ötən il dövlət qurumlarına yüzlərlə kiberhücumun qarşısı alınıb

Ötən il ərzində 1192 xüsusi təhlükəsizlik indikatoru bloklanıb və yüzlərlə kiberhücumun qarşısı alınıb. Bu barədə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət

Xidməti (XRİTDX) “Dövlət qurumlarının İT rəhbərlərinin I Sammiti”ndə məlumat verib. İclasda qeyd olunub ki, bu kiber göstəricilər dövlət qurumlarından göndərilən kibertəhdidlər nəticəsində aşkarlanıb və Milli Təhlükəsizlik Agentliyi tərəfindən təhlil edilib.

Mənbə: xeberler.az, 7 fevral, 2023

## Azərbaycanda dövlət qurumlarına olan kiberhücumların əsas vasitələrindən biri açıqlanıb

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən “Dövlət qurumlarının İT rəhbərlərinin I Sammiti”ndə bildirilib ki, elektron poçt vasitəsilə dövlət orqanlarına çoxsaylı kiberhücumlar göndərilir. Çıxışlarda qeyd olunub ki, dövlət elektron poçt sisteminin özünün mühafizə sistemi bu elektron məktubları analiz edir və onların zərərli hissələrinin olub-olmadığını daim yoxlayır. Problemlərin aradan qaldırılması üçün yeni elektron poçt xidmətinin tətbiqi planlaşdırılır.

Mənbə: xeberler.az, 7 fevral, 2023

## Dövlət qurumlarının informasiya sızmasının qarşısını alacaq proqram təminatı istifadəyə verilib

Dövlət qurumlarında informasiya təhlükəsizliyinin gücləndirilməsi və informasiya sızmasına səbəb ola bilən yerli və xarici disk daşıyıcılarından asılılığı aradan qaldırmaq üçün Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) yeni "share.gov.az" platformasını istifadəyə verib.

Platforma istifadəçilərə, həm qarşı tərəflə paylaşılacaq faylların müvəqqəti saxlanc sistemində 5 dəqiqədən 15 gün intervalınadək saxlama, həm də istifadəçi şifrəsi ilə simmetrik şifrələmə imkanını verir, hansı ki məlumatların kənar müdaxilələrdən qorunması baxımından çox əhəmiyyətlidir.  Yalnız “AzStateNet” şəbəkəsinə qoşulmuş dövlət qurumları sözügedən platformaya fayl yükləmə imkanına malikdir amma istənilən şəbəkə istifadəçisi əldə etdiyi keçid (link) vasitəsilə yüklənmiş faylları endirə bilər.

Mənbə: apa.az, 14 fevral, 2023

## Azərbaycanda dövlət qurumlarına "Microsoft" lisenziyaları artıq pulsuz paylanmayacaq

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi dövlət qurumları üçün “Microsoft” məhsullarının pulsuz paylanması ilə bağlı müqavilənin uzadılmasını planlaşdırmır. Bir sıra dövlət orqanları “Microsoft” məhsullarının qiymətlərinin yüksək olmasından, lisenziyaların yenidən pulsuz paylanmayacağı təqdirdə pulsuz sistemi olan “Linux” və ya digər alternativlərə keçid edəcəklərini bildiriblər.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) də qeyd edilən problemdən xəbərdar olduqlarını və onun həlli istiqamətində müzakirələr aparmaq niyyətində olduqlarını açıqlayıb.

Mənbə: report.az, 17 fevral, 2023

### Səhiyyə Nazirliyinin “Elektron Epikriz” altsistemi hazırlanıb

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş səhiyyənin transformasiyası təşəbbüsü çərçivəsində və rəqəmsal sağlamlıq vasitələrinin tətbiqinin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən Vahid Səhiyyə İnformasiya sisteminin “Elektron Epikriz” altsistemi hazırlanıb. Sistem vətəndaşların xəstəlik tarixlərindən çıxarışların vahid elektron reyestrinin yaradılması, aparılması və saxlanılmasını təmin etməklə məlumat sorğuları əsasında fərdi tibbi məlumatların axtarışını və verilməsini standartlaşdırmağa imkan verir.

Mənbə: apa.az, 24 Fevral, 2023

## Özbəkistan

### Özbəkistan mobil internet sürəti reytinqində 7 pillə aşağı düşüb

Özbəkistan mobil internet sürətinə görə 141 ölkə arasında 122-ci yeri tutub.

"Speedtest Global İndeksi" 2022-ci ilin dekabrı üçün ölkələrin mobil internet sürəti sıralamasını elan edib; Özbəkistan sıralamada 7 yer geriləyərək saniyədə 13,95 Mb sürət ilə 122-ci yerdə qərarlaşıb. Lakin sabit genişzolaqlılıq baxımından ölkə öz mövqeyini bir qədər də yaxşılaşdıraraq 90-cı yerdən 89-cu yerə (saniyədə 45.03 Mb) qalxıb.

Mənbə: kun.uz, 8 Fevral, 2023

### Daşkənddə kibercinayətkarların sayı bir ildə təxminən iki dəfə artıb

Paytaxtın polis departamentinin brifinqində bildirilib ki, 2020-ci ildə hüquq-mühafizə orqanlarının əməkdaşları kiber mühitdə 106 cinayət qeydə alıb. 2021-ci ildə onların sayı 2281-ə çatıb. 2022-ci ildə 4332 belə hadisə aşkarlanıb. Kibercinayətkarlığın əsas hissəsi bank kartlarından pul oğurlanması olub – 2747 hal. Həmçinin kiber fırıldaqçılıqla bağlı 625, narkotiklərlə bağlı 874 cinayət barədə də məlumatlar yayılıb.

Xüsusilə, paytaxtın Almazar, Çilanzar və Yunusabad rayonlarında yaşayan zərərçəkmişlərdən bir çox müraciətlər olub. Kibertəhlükəsizlik Mərkəzi əhali arasında "rəqəmsal immunitet" yaratmaq üçün "Kiber 10 Gün" tədbirlərinin həyata keçiriliyəcəyini elan edib.

Mənbə: kun.uz, 24 Fevral, 2023

## Qazaxıstan

### Qazaxıstan Əşyaların İnterneti (IoT) üçün milli standart hazırlayıb

Qazaxıstanda Əşyaların İnterneti sahəsində milli standart- NB-IoT Simsiz Məlumat Ötürmə Protokolu tərtib edilmişdir. Bu, rəqəmsal transformasiyanın sürətləndirilməsinə və Qazaxıstan iqtisadiyyatının bir çox sahələrində səmərəliliyin artırılmasına şərait yaradır.

Qəbul edilmiş standart milli olduğu üçün ondan bütün mobil operatorlar və Əşyaların İnterneti texnologiyalarını tətbiq edən şirkətlər istifadə edə bilər. NB-IoT şəbəkəsinə qoşulan qurğular yüksək

rabitə sabitliyinə malikdir, hansı ki idarə olunan obyektlərdən məlumat ötürülməsi zamanı 100%-ə çatır. Bu, NB-IoT-nin lisenziyalı tezlik diapazonunda işləməsi, həmçinin şəbəkənin gecə-gündüz monitorinqi və operatorun texniki dəstəyi ilə təmin edilir.

Mənbə: profit.kz, 10 Fevral, 2023

## “Kazakhtelekom“ Abay rayonunun kənd yerlərində internetin sürətini artırır

“Kazakhtelekom” telekommunikasiya şəbəkələrinin yenidən qurulması layihəsi çərçivəsində son bir il ərzində yeni yaradılmış Abay rayonunun Ayaguz bölgəsinin altı kəndinin sakinlərinə radiokörpü texnologiyası vasitəsilə yeni rəqəmsal imkanlar təqdim edib. Müasirləşmə Bidayık, Qorık, Kosaqaş, Örkən, Sarı-Arka, Baykoşkar və Mədəniət kimi kəndləri əhatə etmişdir.

Yeni məlumat ötürmə şəbəkəsi sektoral antenalardan istifadə etməklə təşkil olunub: siqnal göndərən radiokörpünün əsas dirəyi ya kənddəki ən hündür binanın damında və ya təbii təpədə və siqnalları qəbul edən kiçik ölçülü istiqamətləndirici antenalar isə müştərilərin evlərinin damında və ya divarında yerləşdirilir. Dairəvi əhatə dairəsi 5 kilometrə qədər radiusda təmin edilir.

Mənbə: profit.kz, 16 Fevral, 2023

## Qazaxıstan telekommunikasiya operatorlarına abunəçilərə lazımsız xidmətlər tətbiq etməyi qadağan etmək istəyir

Qazaxıstan Respublikasının Rəqabətin Mühafizəsi və İnkişafı Agentliyi (AZRK) rabitə operatorlarına abunəçilərə lazımsız xidmətlər tətbiq etməyi və tarifləri qaldırmağı qadağan etməyi təklif edib. Agentliyin məlumatına görə, əvvəllər qazaxıstanlılar onlara tarif planına daxil olan xidmətlərin həcminin (giqabaytların, səsli zənglərin dəqiqələrinin, SMS mesajlarının artımı) dəyişməsi ilə tarif planlarının qiymətinin birtərəfli artırılması ilə bağlı mobil operatorlar haqqında şikayətlərlə müraciət ediblər.

Araşdırma göstərib ki, mobil operatorlar abunəçilər tərəfindən tələb olunmayan tarif planına daxil edilmiş xidmətlərin həcmində cüzi dəyişikliklər edirlər, hansı ki, tarif planının dəyərini artırır. Bu halların qarşısını almaq üçün AZRK rabitə sahəsində səlahiyyətli orqana müəyyən tövsiyələr hazırlayıb.

Mənbə: profit.kz, 24 Fevral, 2023

## Qazaxıstanlıların rəqəmsal Tengedən nə vaxt istifadə edə biləcəkləri açıqlanıb

Qazaxıstan Milli Bankı rəqəmsal tengenin nə vaxt təqdim ediləcəyini açıqlayıb. “Yadınızdadırsa, biz rəqəmsal tengenin tam tətbiqini bir neçə il uzaddıq. Bu il biz hazırda ilkin dövlət orqanlarının və sosial ödənişlərin seçilməsi prosesindəyik. Yəni ilin sonuna qədər qazaxıstanlılar rəqəmsal tengedən faktiki olaraq müəyyən sosial ödənişləri almaq və layihəmizə daxil olan dövlət qurumlarında dövlət satınalmalarında iştirak etmək üçün istifadə edə biləcəklər”, - Qazaxıstan Milli Bankının nümayəndəsi bildirib.

Mənbə: profit.kz, 27 Fevral, 2023

# Qırğızıstan

## Qırğızıstanda unikal Rəqəmsal Kod hazırlanır

Qırğız Respublikasının Nazirlər Kabineti Almatıda keçirilən "Rəqəmsal Almatı" illik beynəlxalq forumunda məlumat verib ki, Qırğızıstanda unikal Rəqəmsal Kod hazırlanır.

"Qırğızıstan rəqəmsal texnologiyaların inkişafı üçün balanslaşdırılmış şərait yaratmaq üçün hər gün çalışır. Rəqəmsal dünyada baş verən inqilablardan danışırıqsa, biz hal-hazırda dövlət idarəçiliyində rəqəmsal həllərin aktiv tətbiqi ilə yaranan münasibətləri tənzimləmək üçün unikal Rəqəmsal Kod hazırlayırıq", - Nazirlər Kabinetinin nümayəndəsi bildirib.

Mənbə: kabar.kg, 3 Fevral, 2023

## Yaponiyanın 16 İT şirkətinin nümayəndələri Qırğızıstana səfər edəcək

Yaponiyanın 16 İT şirkətinin nümayəndələri Qırğızıstana səfər edəcək. Onlar əməkdaşlıq imkanlarını müzakirə etmək üçün yerli həmkarlar ilə görüşəcəklər. Bu barədə Qırğızıstanın Yüksək Texnologiyalar Parkında (YTP) məlumat verilib.

"Onların səfərlərinin məqsədi iki ölkənin İT şirkətləri arasında əməkdaşlığı inkişaf etdirmək, informasiya texnologiyaları sahəsində yerli yüksək ixtisaslı kadrlardan istifadə imkanlarını öyrənməkdir. YXTT-nin mesajından belə çıxır ki, Qırğızıstan elm və riyaziyyat sahəsində böyük insan resursları potensialına malikdir və inkişaf etmiş ölkələrdə İT şirkətləri ilə tərəfdaşlıq həyata keçirmək üçün texnoloji imkanlara malik şirkətlərin sayı durmadan artır", - YTP qeyd edib.

Mənbə: kabar.kg, 28 Fevral, 2023

MAKING AN IMPACT THAT MATTERS since 1845

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.